# Mədəni davranış sahəsində ailənin rolu

**Aysel Qorxmaz qızı Mustafabəyli**
*Bakı Qızlar Universiteti*
**E-mail:** aysel.mustafabeyli.96@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos.P.M. Həsənova,
p.ü.f.d., dos.F.M. Allahverdiyeva

**Açar sözlər:** davranış, ailə, cəmiyyət, sosial, şəxsiyyət, proses, pedaqoq
**Ключевые слова:** поведение, семья, общество, социальное, личность, процесс, педагог
**Key words:** behavior, family, community, social, personality, process, pedagogicial

Hər bir sosial pedaqoq və işçinin fəaliyyətinin obyekti uşaq şəxsiyyətidir. Ailədə uşağın ətraf aləmə münasibəti tənzimlənir, o, mənəviyyat, mədəni davranış normaları təcrübəsi qazanır. Ailənin mənəvi mədəniyyəti cəmiyyətin mənəvi mədəniyyətini əks etdirir. Sosial vəzifə yerinə yetirməklə ailə öz mədəni, sosial və mənəvi səviyyəsinə uyğun şəxsiyyət formalaşdırır. Şəxsiyyətin ailədə sosiallaşması ailə daxilindəki münasibətlərdən, valideynlərinin nüfuzu və rəhbərliyindən asılıdır. Müasir ailəyə cəmiyyətdəki bütün dəyişikliklər; biliyin texnologiyasının və məlumatların toplanması və sistemin yenidən qurulması, siyasi və iqtisadi sistemin böhranı kimi ən iri dəyişikliklər də təsir göstərir.

Mədəni davranış sahəsində ailənin rolu böyük əhəmiyyəti malikdir. Ailə cəmiyyətin mühüm sosial özəyi kimi nəsillərin tərbiyəsini, idrak, əmək fəaliyyətini tənzimləyir. Bir sözlə, şəxsiyyətin sosiallaşması – onun öz doğma dilini və məişətdə davranış qaydalarını, yaradıcılığa qabilliyi, öz xalqının mədəniyyətini dərindən sevib qavramasıdır.

Sosiallaşma uşağın fəaliyyətindən, onun əməkdə iştirakından, onun görüş dairəsinin genişlənməsinə ətraf mühitin etdiyi təsirlərdən, cəmiyyət və dövlətin gənc nəslə göstərdiyi qayğıdan asılıdır. Şəxsiyyətin təşəkkülündə sosial pedaqoq da çox iş görə bilər. O, uşağın meyl və qabiliyyətlərini, istəklərini aşkar edib, ailəni və ətraf mühiti öyrənib, onun inkişafı üçün şərait yarada bilər. Bu zaman o, tərbiyənin uyğun yanaşma tərzinin forma və üsullarını axtarıb tapır. Sosial pedaqoq şəxsiyyətin formalaşmasında yaş xüsusiyyətlərini nəzərə almalı, çətin olan yeniyetmənin keçid dövrünü unutmamalıdır. Unutmaq olmaz ki, bu dövrdə ailənin təsiri zəifləyir və dostların, küçənin, kompaniyaların, kütləvi informasiya vasitələrinin təsiri güclənir. Bu yaşda gənc özünə, böyüklərə, tərbiyəçilərə yüksək mənəvi ölçü meyarı ilə yanaşır.

Tərbiyəni təşkil edərkən sosial pedaqoq bilməlidir ki, şəxsiyyətin formalaşması prosesində uşağa – təbiət və ana dili, ailədə, məktəbdə, ətraf mühitdə ünsiyyət; onun fəaliyyəti; kütləvi informasiya vasitələri, mədəniyyət, ədəbiyyat; uşağın özünün həyat tərzi, onun səyləri, planları, mikromühitdə yerinə yetirdiyi rolu təsir göstərir.

Mədəni davranış, mənəviyyat, psixoloji inkişaf, ünsiyyət, həyat göstəriciləri – bütün bunlar ailədə formalaşdırılır və ənənəvi olaraq tərbiyənin əsas təsisatı hesab olunur. Uşağın, uşaqlıq illərində ailədə əldə etdiyi bütün bu mənəvi zənginlikləri sonrakı həyatı boyu qoruyub saxlayır.

Ailənin bir tərbiyə institutu olduğunu nəzərə alsaq, uşaq həyatının böyük bir hissəsini bu institutdan bəhrələnərək və bununla da öz şəxsiyyətinin formalaşmasının əsasını qoyur. Uşağın tərbiyəsində valideyn, kortəbii deyil pedaqoji məqsədi rəhbər tutarsa deməli qoyulmuş

məqsədə doğru, düzgün irəliləyir. Hər bir valideyn uşağı tərbiyə edərkən, düzlük, xeyirxahlıq, bir sözlə, "yaxşı adam" kimi böyütmək istəyi, lakin bu sadəcə ülvi bir hissdir, qənaətbəxş deyil. Valideyn ilk öncə bilməlidir ki, "yaxşı adam" anlayışı altında hansı bacarıq və vərdişlər, xarakterik əlamətlər və s. kimi xüsusiyyətlər cəmləşir, həmçinin uşağa bu vərdişləri aşılamaq üçün hansı üsul və vasitələrdən olunur.

Ailədə müəyyən məqamlar vardır ki, bunlar uşaqların sosial inkişafına təsir edəcək amillərdir. Bunlara ilk öncə ata ilə ana, bacı ilə qardaş arasındakı münasibətlər daxildir. Həmin bu ailə münasibətləri düzgün qurulmazsa ilk öncə, uşaqların emosiya və hisslərinin inkişafına mənfi təsir göstərir. Uşaqların yaşı artdıqca həmin münasibətləri mənimsəyirlər və bu zəmində oğlan və qız uşaqlarının xarakterik əlamətləri formalaşmağa başlayır. Tərbiyə ilə bağlı "əzizim əziz, tərbiyəsi ondan əziz" atalar sözlərinin hikməti də aydındır. Odur ki, ailədaxili münasibətlərin sağlam əsaslar üzərində qarşılıqlı hörmət və məhəbbət əsasında qurulması əsas şərtlərdən biridir. V.A.Suxomlinskinin də dediyi kimi uşaqların əsas tərbiyə məktəbi ata və ana arasındakı qarşılıqlı münasibətdən başlayır. Məktəbəqədər uşaqlıq – şəxsiyyətin mənəvi təşəkkülündə mühüm dövrdür. Pedaqogika və psixologiya sahəsində yerli aləmlərin tədqiqatları şəxsiyyətin əsas mənəvi keyfiyyətlərinin məhz bu illərdə formalaşdığını göstərir.

Görkəmli pedaqoq K.D.Uşinskinin dediyi kimi uşağın tərbiyəsinə anadan olan kimi başlamaq lazımdır. Həmçinin, peyğəmbərimiz əbəs yerə söyləməmişdir ki, "heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz. Valideynlər hər zaman övladlarını gözəl tərbiyə etmək, əxlaq öyrətmək istəsələr də, lakin bəzən arzuladıqları övladı görə bilmirlər. Oskar Uayldın da dediyi kimi: "uşağa buyurmaq yox, öyrətmək, idarə etmək yox, istiqamət vermək, əmr etmək yox, məsləhət vermək, öyüd vermək yox, sübut etmək lazımdır.

Ailə pedaqogikası konsepsiyası şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafını təmin edən tərbiyə sisteminin yaradılmasıdır. Uşaqların mənəvi əsaslarının formalaşmasında əsas diqqət, məktəbəqədər uşağın məzmununa və ideya istiqamətinə yönəldilməlidir.

Ailədə uşağa təlqin edilən xüsusiyyətlərdən biri də itaətkarlıqdır. Bunu uşaq yaşlarından tərbiyə etmək vacibdir, çünki valideynlərə və böyüklərə hörmət və diqqət insanın həyatında zəruri və mühüm məsələdir. Ailədə uşağa intizamlılıq tərbiyə edilməlidir ki, bu da onun əqli qabiliyyət və imkanlarının düzgün inkişafına təsir edir. Ailədə hökm sürən əmək vərdişləri kiçik insanın gələcək həyatını müəyyən edir. Ailənin psixoloji iqlimi də mühüm əhəmiyyətə malikdir. Bu sabit hissi durumdur ki, bu zaman ailədə ümumilikdə mehribançılıq, böyüklərin məhəbbəti və qayğılı münasibəti uşağa müsbət təsir göstərir. Uşaqlarda davranış pozuntusu – uşaqların psixofizioloji amillərlə şərtlənən daxili qarşıdurmaların davranışa köçürülməsi nəticəsində yaranır. Bunlara: yalan, aqressivlik, oğurluq, söyüş və s. amillər aid etmək olar. Lakin hər yaş dövrünün öz davranış forması olduğunu nəzərə alsaq, bu simptomların davranış pozuntusu sayılması üçün bu meyarlar olmalıdır: məsələn yalan danışmaq buraya aid olsa da lakin bu 3-5 yaşlı uşaqlar üçün normal haldır, 5 yaşdan yuxarı uşaqlarda bu hal olarsa bunu davranış pozuntusu hesab etmək lazımdır və s.

Uşaqlarda mədəni davranışın formalaşmamasının elə günahı da valideynlərdədir. Belə ki, bir çox ailələrdə bu problemlər olur ki, bu da özlərinin yetəri qədər sosiallaşmamasından irəlin gəlir. Məsələn: bəzi valideynlər uşaqlarının pis davranışlarını onları cəzalandırmaqla sona çatacağını düşünürlər. Lakin bu belə deyil, valideyn bilməlidir ki, bu kimi hərəkətlər uşaqlarda özünə inamsızlığın və valideyn – övlad əlaqəsinin pozulmasının əsasını qoyur. Uşaqda sevgi – qorxuya, inam – özgüvənsizliyə çevrilir. Və belə valideynlər özləri də vaxtında öz ailələrindən gördükləri bu "çıxış yolu"nu övladları üzərində sınayır, övladları da böyüyərkən bu prinsipi unutmayaraq gələcəkdə öz övladları üzərində sınayır və beləcə düzgün olmayan dav-

ranış zənciri yaranır.

İndiki dövrdə bir çox ailələrə sosial pedaqoq lazımdır, çünki müasir məktəb ancaq təlimlə məşğuldur, valideynlərin isə 3/2-i uşaqların tərbiyəsində çətinlik çəkirlər. Sosial pedaqoq əsasən kənd ailəsi, ənənəvi, müasir çox uşaqlı, natamam, qaçqın ailəsi və s. kimi ailələrə lazımdır. Sosial pedaqoqun isə ailə ilə birinci vəzifəsi böhranlı vəziyyəti aradan qaldırmaqdır. Ailənin statusu ata və ananın davranışından, onların uşağın tərbiyəsindəki rolundan asılı olur. Ailə uşağı cəmiyyətə çıxarır, məhz ailədə uşaq sosial tərbiyə alır, şəxsiyyət olur. Ailədə onun sağlamlığı möhkəmlənir, onun imkan və qabiliyyətləri inkişaf etdirilir, onun təhsili, əqli inkişafı, vətəndaş tərbiyəsi qayğısına qalırlar, onun taleyi və gələcəyi həll edilir.

Ailədə uşaq zəhmətə alışır, peşə seçir, gənclər ailə həyatına hazırlanır, öz ailələrinin davam etdirirlər. Ailə tərbiyəsi ənənələri illərlə yaradılmışdır. Platon dövründən ta bizim dövrədək alim və pedaqoqlar təsdiq edirlər ki, insanın inkişafı və formalaşmasına, onun əqli, fiziki və mənəvi qabiliyyətlərinə, sağlamlığı və ənənəvi prinsiplərinə yalnız valideynlər müsbət təsir edə bilir. Mədəni davranış, mənəviyyat, psixoloji inkişaf, ünsiyyət, həyat göstəriciləri – bütün bunlar ailədə formalaşdırılır. Valideynlər hansı problemləri, kimlərlə, necə həll etməsindən asılı olmayaraq, bütün bunlar uşaqların tərbiyəsində öz izini qoyur.

A.S.Makarenko möhkəm əmin idi ki, valideynlərin özlərinə tələbləri, valideynin ailəyə hörməti, valideynin özünün hər addımına diqqət etməsi – ilk və ən başlıca tərbiyə vasitəsidir. Əgər sizin uşaq uğursuz tərbiyə olunmuşsa onda gərək özünüzü mikroskop altına qoyarsınız. Bu zaman uşağı yenidən tərbiyə etmək lazım deyil; ona münasibəti dəyişmək lazımdır ki, bu da valideynlərdən asılıdır. Valideyn uşağının mənəvi davranışı, şüurlu hərəkəti, dosta-yoldaşa münasibəti ilə vaxtında maraqlanmazsa,o, gələcəkdə nə vətənə, nə də ailəyə heç bir xeyir verə bilməz. Ailənin bir çox sosial vəzifələri mövcuddur. Bunlar:

— tərbiyəedici – gənc nəslin sosiallaşması;

— təsərrüfat – məişət-ailənin fizikin durumunun saxlanması, uşaq və yaşlılara qayğı;

— sosial nəzarət – ailə üzvlərinin cəmiyyətdəki, müxtəlif sahələrdə davranışındakı məsuliyyəti;

— mənəvi ünsiyyət – ailənin hər bir üzvünün mənəvi zənginləşməsi;

— sosial statusu – ailə üzvlərinin cəmiyyətdə müəyyən sosial vəziyyət qazanması;

— istirahət etmək – səmərəli istirahətin təşkili, ailənin hər bir üzvünün maraqlarının qarşılıqlı zənginliyinin inkişaf etdirilməsi; ailənin hər üzvünün psixoloji müdafiəsinin həyata keçirilməsi, şəxsiyyətin hissi sabitliyinin təşkili, psixoloji terepiya.

**Məqalənin aktuallığı.** Mədəni davranış ailənin mənəvi mədəniyyətinin əsas elementlərindəndir. Təbii ki, bu sahədə ailənin rolu böyük əhəmiyyəti malikdir. Ailə cəmiyyətin mühüm sosial özəyi kimi nəsillərin tərbiyəsini, idrak, əmək fəaliyyətini tənzimləyir. Bir sözlə, şəxsiyyətin sosiallaşması – onun öz doğma dilini və məişətdə davranış qaydalarını, yaradıcılığa qabilliyi, öz xalqının mədəniyyətini dərindən sevib qavramasıdır. Məqalənin də məhz bu mövzuya həsr olunması onun aktuallığını göstərir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə şəxsiyyətin sosiallaşması prosesində əsas komponentlərdən biri kimi mədəni davranış sahəsində ailənin rolu və bu fəaliyyətin əsas cəhətləri bir daha nəzərdən keçirilir, bununla bağlı bir sıra məşhur pedaqoqların fikirlərinə istinad edilir, uşağa təlqin edilən xüsusiyyətlər təhlil olunur və sosial vəzifələrin təsnifatı verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Ailə Məcəlləsi.
2. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
3. A.Abbasov, Ə.Əlizadə. Ailə. Bakı, 1989.
4. Ə.Bədəlova. Azərbaycan xalq pedaqogikası. Bakı, 2009.
5. F.İbrahimov, R.Hüseynzadə. Pedaqogika. Dərslik (iki silddə). Bakı, 2019.
6. S.Quliyev. Ailə tərbiyəsinin mühüm problemləri. Bakı, 2005.


**А.Г. Мустафабейли**

## Роль семьи в сфере культурного поведения

## Резюме

Культурное поведение - один из основных элементов духовной культуры семьи. Роль семьи в этой области очень важна. Семья, как важное социальное ядро общества, регулирует воспитание, познание и трудовую деятельность поколений. Словом, социализация человека - это его глубокая любовь и понимание родного языка и правил поведения в повседневной жизни, его способность к творчеству и культура своего народа.

В статье также рассматривается роль семьи в сфере культурного поведения как одного из основных компонентов в процессе социализации личности и основные аспекты этой деятельности, приводятся взгляды ряда известных педагогов, анализируются характеристики ребенка и классифицируются социальные обязанности.

**A.G. Mustafabayli**

## The role of the family in the field of cultural behavior

## Summary

Cultural behavior is one of the main elements of the spiritual culture of the family. The role of the family in the field is of great importance. The family, as an important social core of society, regulates the upbringing, cognition and labor activity of generations. In short, the socialization of a person is his deep love and understanding of his native language and rules of conduct in everyday life, his ability to be creative, and the culture of his people.

The article also reviews the role of the family in the field of cultural behavior as one of the main components in the process of socialization of the individual and the main aspects of this activity, citing the views of a number of famous educators, analyzing the characteristics of the child and classifying social responsibilities.

**Redaksiyaya daxil olub:** 02.10.2020